# AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN)

## Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində uşaq hüquqlarının müdafiəsi



## Yaşayış üçün şərait necə olmalıdır?

***Bunu bilməlisən:*** *Hər bir uşağın yaşamaq, normal şəraitdə inkişaf etmək hüququ vardır. Dövlət bu şəraiti təmin edən iqtisadi, sosial-hüquqi və digər tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür.*



- uşaqlar zəruri mebel və avadanlıqlarla təmin edilmiş təmiz, səliqəli yerdə qalmalı
- həftədə ən azı bir dəfə və ya çirkləndikdə dərhal dəyişdirilən təmiz yataq dəstləri (döşək üzü, yorğan üzü, balışüzü), şəxsi gigiyena məqsədilə zəruri gigiyenik vasitələr ilə (sabun, maye sabun, salfet və s.) təmin edilməli;
- otaqlar, hamam və sanitar qovşaq (tualet) təmizlənməli, dezinfeksiya edilməli havalandırılmalı, yataq və geyim əşyaları yuyulmalı və ütülənməli;
- müəssisələrdə təbii işığı və ventilyasiyanı təmin edən pəncərə olmalı, otaqlar mövsümdən asılı olaraq isti və ya sərin saxlanılmalı;
- qızlar və oğlanlar üçün ayrıca tualet, isti və soyuq su, duş və ya vanna ilə təchiz edilmiş ayrıca vanna otaqları olmalı;
- iki uşağın eyni çarpayıda yatmasına, həmçinin 5 yaşından kiçik olan uşağın ikimərtəbəli çarpayının üst qatında yatmasına yol verilməməlidir.

***Qeyd:*** *Uşaqların sağlamlığı üçün otağın havasının gündə minimum 2 dəfə dəyişdirilməsi mütləqdir. Əks halda məkanda normadan artıq zərərli maddələr yığılır bu isə öz növbəsində baş ağrısı, diqqətin pozulması, yorğunluq və halsızlıq, immunitetin zəifləməsi kimi fəsadlara gətirib çıxarır.*

**AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN)**

*Bütün uşaqlar eyni hüquq və azadlıqlara malikdir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin əsas istiqamətlərindən biri uşaqların hüquq və maraqlarının müdafiəsidir.*

*Əziz uşaqlar, bu bukleti hazırlamaqda məqsəd sizi hüquqlarınızın bir qismi ilə tanış etməkdir.*

ombudsman_azerbaijan

ombudsman.az

az_ombudsman

Ombudsman of Azerbaijan

www.ombudsman.az

ombudsmanaz

## Sağlam qida ilə necə təmin olunmalısınız?

***Bunu bilməlisən:*** *Düzgün və sağlam inkişaf üçün günə səhər yeməyi ilə başlanılmalı, səhər yeməyində süd və süd məhsulları, yumurta, bal, quru meyvə, çərəz, mövsümə uyğun təzə meyvə və tərəvaz yeyilməlidir.*





*Bütün uşaqlar gündə 3 dəfədən az olmayaraq isti yeməklə, vitaminlə zəngin meyvə və tərəvazlərlə, kalsiumla zəngin süd və süd məhsulları ilə təmin olunmalıdırlar.*

## Geyim, ayaqqabı və digər ləvazimatlarla təminat :

***Bunu bilməlisən:*** *Uşaqlar mövsümi geyim və ayaqqabı, alt paltarı və corab, baş geyimi, əlcək və yun şərf, məktəbli forması, idman forması  və ayaqqabısı, bayram paltarı (qızlar üçün), bayram kostyumu (oğlanlar üçün), yumşaq inventar (məhrəba, tiftikli məhrəba, yun odeyal, pambıq odeyal) ilə təmin olunmalıdırlar.*



***Bunu bilməlisən :*** *Gigiyena insanların sağlamlığı və özünə inamı üçün vacibdir. Ən sadə gigiyena əllərinizi yumaq, bədənizi və dişlərinizi təmiz saxlamaqdır.*





***Qeyd:*** *Gigiyenanızın qayğısına qalmaq üçün aşağıda qeyd edilən zəruri gigiyena vasitələri ilə təmin olunmalısınız:*

- *diş fırçası, diş pastası;*
- *sprey dezodorant-antiperspirant (nisbətən böyük qız və oğlan uşaqları üçün);*
- *sabun, maye sabun;*
- *təraş köpüyü (nisbətən böyük oğlan uşaqları üçün);*
- şəxsi məhraba.

## Ombudsmanın "916" Çağrı Mərkəzi:

*Hüquqlarınızla bağlı hər hansı bir sualınız və ya müraciətiniz olarsa Ombudsmanın 24 saat fəaliyyət göstərən "916" Çağrı Mərkəzinə bildirə bilərsiniz.*



**916**
ÇAĞRI
MƏRKƏZİ

*Ombudsmana məlumat verilməsinə görə hər hansı şəxsə və ya təşkilata təzyiq göstərilməsi, yaxud şəxsin və ya təşkilatın təqib edilməsi yolverilməzdir.*

## Təhsil və asudə vaxtın səmərəli təşkili:

***Bunu bilməlisən:*** *Hər bir uşağın Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə uyğun olaraq təhsil almaq hüququ vardır. Uşaq öz maraqlarına və qabiliyyətinə uyğun olaraq məktəbdənkənar istirahət və məşğuliyyət növü seçməkdə müstəqildir.*






- uşaqlara ev tapşırıqlarını yerinə yetirməkdə köməklik göstərilməli;
- yaşlarına uyğun bədii ədəbiyyat, təhsilləri üçün zəruri olan və inkişaf, bacarıq və maraqlarını qarşılayan tədris ləvazimatları, həmçinin oyuncaqlarla təmin edilməli;
- dini ayinlərin icrası üçün ayrıca yerlə təmin olunmalı;
- hər bir şagirdin maraq dairəsi, qabiliyyəti diqqətlə öyrənilməli, onların bacarıq və vərdişlərinin inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradılmalı;

- dərsdənkənar vaxtlarının səmərəli təşkili və onların hərtərəfli inkişafı məqsədilə klublar, studiyalar, dərnəklər, özfəaliyyət kollektivləri, idman bölmələri yaradılmalı;
- müntəzəm olaraq gecələr, müsabiqələr, yaradıcı adamlarla görüşlər keçirilməli;
- uşaqlar vaxtaşırı olaraq konsertlərə, teatr tamaşalarına, muzeylərə, ekskursiyalara, gəzintilərə aparılmalı, eləcə də tarix və mədəniyyət abidələrinin öyrənilməsi üçün şərait yaradılmalıdır.